# ZINA

## فاحشة الزنا

IXTISAS REDAKTOR: VEYSAL ORUCOV

**مراجعة:** فيصل جورجي

## ON SOZ

Həqiqətən şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə o, doğru yolda olar, kimi azdırarsa onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

**«Ey iman gətirənlər! Allahdan layiqincə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!»**[1]

**«Ey insanlar! Sizi tək bir şəxsdən** [Adəmdən] **xəlq edən, ondan da onun üçün zövcə** [Həvvanı] **yaradan və onlardan da bir çox kişi və qadın** [törədib yer üzünə] **yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən** [cürbəcür şeylər] **istədiyiniz Allahdan qorxun və qohumluq əlaqələrini kəsməkdən** [həzər edin]**! Həqiqətən, Allah sizə nəzarət edəndir!»**[2]

**«Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!** [Əgər belə etsəniz] **Allah əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Onun elçisinə itaət etsə, böyük bir səadətə nail olar».**[3]

Əziz oxucular, dində vacib olan bəzi məsələləri sizə xatırlatmaq, özünün də xəbəri olmadan yavaş-yavaş şeytanın dalınca addım-addım gedən soydaşlarımızı gözləyən təhlükələrdən hamınızı xəbərdar etmək məqsədi ilə bu risaləni yazmaq qərarına gəldik. Bu dəfəki mövzumuz indiki dövrümüzdə əvvəlki vaxtlara nisbətən daha da aktuallaşan, tarixdə sayı bizə məlum olmayan qədər cəmiyyətləri daxildən sarsıdıb məhv edən bir məsələ barədə olacaq. Bu risalədə millətimiz, dövlətimiz, cəmiyyətimiz ən nəhayət və ən əsası müsəlman ümmətimiz üçün dəhşətli silahlardan da qorxulu olan əxlaqsızlıqdan və zinakarlıqdan[4] söhbət açacaq, bu əməlin törədə biləcəyi fəsadlar haqqında sizi bir daha məlumatlandıracağıq.

---

[1] «Ali İmran» surəsi, 102.
[2] «ən-Nisa» surəsi, 1.

[3] «əl-Əhzab» surəsi, 70-71.
[4] Nikah olmadan cinsi əlaqədə olmaq, yaxınlıq etmək.

Həmişə olduğu kimi bu dəfə də toxunduğumuz problemin meydana gəlmə səbəblərini ortaya qoyacaq və onun aradan qaldırılması yollarını sizlərə çatdıracağıq. Həmişə olduğu kimi bu risalədə də məsələləri Quran ayələri və Peyğəmbərimizdən **səllallahu aleyhi və səlləm** bizə gəlib çatan dəlillərlə əsaslandıracağıq. Hesab edirik ki, hər birimiz bu risalədə yazılanların bizim şəxsi fikrimiz olmadığını, yalnız Yaradanın əmr və tövsiyələri olduğunu nəzərə alıb onları qulaq ardına vurmayacaq, hamılıqla birlikdə belə pis əməllərlə mübarizə aparmağa qalxacağıq; yalnız bir məqsədlə - Uca Allahın razılığını qazanmaq naminə. Bəli, yalnız Allahın razılığını qazanmaq. Və bu yazını yazmaqda yenə də köməyi Ondan diləyirik.

Uca Allah buyurur: **«Zinaya yaxınlaşmayın! Həqiqətən də bu iyrənc bir əməl və murdar bir yoldur»[5].**

Həmd Allaha olsun! Həqiqətən də O hər şeyi biləndir. Zina nəinki ona qurşanmış tərəflərin, həmçinin bütün cəmiyyətin son nəticədə alçalması, cılızlaşması və məhv olması həddinə gətirib çıxaran murdar bir əməldir. Bunu bizdən də yaxşı bilən Uca Allah bizi ondan bu ayə vasitəsi ilə çəkindirmişdir. Əgər Allah bizə bu əməlin murdar olduğunu deyirsə, deməli bu əməli edən və ya ona şərait yaradan kəslər günahkardırlar. Lakin biz sonrakı qeydlərimizdə bu ifadəni, onu törədən şəxsin əməli olaraq sadəcə zinakar adlandıracağıq. Hesab edirəm ki, bu əməli törədənləri belə adlandırmaqla heç kəs bizdən inciməyəcək. Zinakarlığın təhlükəsini və çirkinliyini başa düşən Yusuf peyğəmbər **aleyhissəlam** də ondan çəkinmiş və zindana düşməyi zina etməkdən üstün tutaraq belə dua etmişdir: **«Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən xoşdur. Əgər bu qadınların hiyləsini məndən dəf etməsən mən onlara meyl edər və cahillərdən olaram»[6].**

Yusuf peyğəmbərin **aleyhissəlam** bu duası doğrudan da təqdirəlayiqdir. Qadının istəyini hansı vəziyyətdə və nə cür əxlaqla rədd etməsini sizə desək və ya sadəcə olaraq siz özünüz Qurani Kərimi əlinizə alıb “Yusuf” surəsini 20-ci ayəsindən 30-cu ayəsinədək oxusanız buna şahid olar, bir çoxları isə hətta heyrətlənər də. Biz isə öz növbəmizdə bir çoxlarının namaz qılıb Quran oxumaqdan başqa hər bir işə vaxt tapdıqlarını nəzərə alıb həmin hadisəni qısaca xatırlatmaqla Yusuf peyğəmbərin **aleyhissəlam** həqiqətən necə sadiq mömin olduğunu bir daha bəyan etmək istərdik.

Qardaşları həsədləri ucbatından Yusufu **aleyhissəlam** quyuya atdıqdan sonra yoldan keçən karvan onu xilas edir. Yusufun çox gözəl olması Misir vəzirinin zövcəsinin diqqətindən yayınmır və o, günlərin bir günü otağın qapılarını bağlayaraq Yusufa onunla yaxınlıq etməyi əmr edir. Sözsüz ki, qadın yuxarıda qeyd etdiyimiz şəkildə rədd cavabı alır. İndi isə üzümüzü sizə tutaraq deyirik: “Ey etdiyi zinaların sayına görə öyünən insan, və ya ey imanının zəifliyindən şəhvət hisslərini cilovlaya bilməyən müsəlman, və ya ey üzdə özünü mömin kimi göstərib xəlvətə çəkildikdə isə zina və digər çirkin işlərini davam etdirən kəslər, Yusuf peyğəmbərin **aleyhissəlam** hərəkətinə bax və ibrət al!” Birincisi, Yusuf həddən artıq gözəl idi və onun bu gözəlliyi qarşısında qadınlar tab gətirə bilmirdilər. O isə başqasının

[5] «əl-İsra», 32.
[6] «Yusuf», 33.

qadınına pis gözlə baxmadı. İkincisi, o gənc idi və deməli onda olan şəhvət hissi də güclü olmalı idi. Buna baxmayaraq o, şəhvətinə qalib gələ bildi. Üçüncüsü, o qəriblikdə idi və şübhəsiz ki, zina edəcəyi təqdirdə heç kəsin, xüsusən də yaxınlarının və tanışlarının xəbər tutmayacağı fikri də onu bu işə sövq edə bilərdi, lakin etmədi. Dördüncüsü, o qul idi və qadın da onun ağası idi. O bunu əmrə tabe olaraq qorxusundan da edə bilərdi, lakin qorxmadı. Beşincisi, qadın zadəgan ailəsindən idi. Bir çox cahillər varlı və zadəgan qadınla eyş-işrət arzusunda olarkən, Yusuf bundan imtina edirdi. Altıncısı, qadın zina etməyə hazır idi və bu halın özü Yusufu yoldan çıxara bilərdi, necə ki, indi bir çoxları bir işarəyə bənddirlər. Yeddincisi, onların yanında heç kəs yox idi və bu vəziyyət də gənc Yusufa təsir edə bilərdi lakin etmədi. Səkkizincisi, qadın qapıları bağlamışdı və bu da Yusufu arxayınlaşdıra bilərdi, lakin o buna getmədi. Doqquzuncusu, qadın Yusufdan yapışaraq onu özünə tərəf çəkirdi ki, bu da onda ehtiras yarada bilərdi, lakin o buna əhəmiyyət vermədən qapıya tərəf qaçdı. Onuncusu isə, qadın onu hədələyir, lakin Yusuf hətta hədə-qorxu qarşısında belə sınmır. Həqiqətən də bu ayələrin mənasında və ümumən "Yusuf" surəsində başa düşənlər üçün böyük ibrətlər vardır ki, biz də onun bəzi məqamlarını qeyd etdik. Uca Allah bu surədə sadiq, heç kəsin sözünə, hədəsinə, marağına, təklifinə əhəmiyyət verməyərək batili ayaqları altına atıb yalnız Allaha tapınan, Onu razı salan işlər görən Yusuf peyğəmbəri **aleyhissəlam** bütün insanlara xüsusən də çaşaraq yolunu azanlara nümunə göstərir. Sözsüz ki, Yusuf peyğəmbər də **aleyhissəlam** bizim kimi bir insan idi və deməli onun da qadına (xüsusən də yuxarıda qeyd edilən vəziyyətdə) meyli ola bilərdi. Lakin peyğəmbərdəki Allah qorxusu, Allaha imanı və sadiqliyi onu bu əməldən çəkindirir. Çünki Yusuf şəhvətinin, nəfsinin, şeytanın qulu deyildi. O, aləmlərin Rəbbi, Din gününün Hökmdarı, Uca Allahın qulu idi. Allahın qulu olmaq nə böyük şərəf, nə böyük səadətdir!

Zina etməyin nə cür çirkin bir iş olduğunu Peyğəmbərimizdən **səllallahu aleyhi və səlləm** bizə gəlib çatan bir hədisdən də görmək olar. «Qureyşli bir gənc Peyğəmbərin **səllallahu aleyhi və səlləm** yanına gəlib dedi: «Ey Allahın elçisi, izn ver zina edim». Əshabələr ona yaxınlaşıb, sus-sus deyərək kənara çəkdilər. Peyğəmbər **səllallahu aleyhi və səlləm** dedi: «Yaxın gəl!» O yaxına gəldikdə Peyğəmbər **səllallahu aleyhi və səlləm** dedi:

– Öz anana rəva bilərsən?

– Allaha and olsun ki, yox. Allah məni sənə fəda etsin!

– Həmçinin insanlar da öz analarına bunu rəva bilmirlər. Bunu öz qızına istəyərsən?

– Allaha and olsun ki, yox. Ey Allahın elçisi Allah məni sənə fəda etsin!
– Həmçinin insanlar bunu öz qızlarına istəməzlər. Bunu öz bacın üçün istəyərsən?
– Allaha and olsun ki, yox. Ey Allahın elçisi Allah məni sənə fəda etsin!
– Həmçinin insanlar bunu öz bacıları üçün istəməzlər. Bunu öz bibin üçün istəyərsən?
– Allaha and olsun ki, yox. Ey Allahın elçisi Allah məni sənə fəda etsin!
– Həmçinin insanlar da öz bibilərinə bunu istəməzlər. Bunu öz xalan üçün istəyərsən?
– Allaha and olsun ki, yox. Ey Allahın elçisi Allah məni sənə fəda etsin!
– Həmçinin insanlar da bunu öz xalaları üçün istəməzlər.

Peyğəmbər **səllallahu aleyhi və səlləm** əlini onun çiyninə qoyub dedi: «Allahım, Onun günahını bağışla, qəlbini təmizlə və ismətini qoru!» Bu hadisədən sonra o gənc heç bir şeyə (zinaya) meyl etmədi»[7]. Diqqət edin, bu hədisdə düşünən insanlar üçün kifayət qədər ibrətlər vardır. Hər şeydən öncə sevimli Peyğəmbərimizin **səllallahu aleyhi və səlləm** başa salma üslubu, hikməti və mövzu haqqında açıq danışması diqqəti cəlb edir. Bu an o əsəbiləşmir və çox mülayimdir. Onun izahına gəlincə isə Rasulullah **səllallahu aleyhi və səlləm** zina etmək istəyən insanlara hər şeydən öncə öz yaxınlarını gözünün qabağına gətirməsini deməklə onlara törətmək istədikləri əməllərdən çəkindirir.

Yaxşı, bir halda ki, insan özü də anlayır ki, bu əmələ Uca Allah və Onun Rəsulu **səllallahu aleyhi və səlləm** icazə verməmişdir, bəs onda onu bu işə cəkən nədir? Nə üçün insan halal olan həyat yoldaşı ilə qane olmayıb, haram işlərə də baş vurur? İstərdik ki, bu suala bir qədər ətraflı cavab verək.

Bu əməl hər şeydən öncə insan nəfsinin istəyidir. Yəni, insandakı nəfs onu şeytanın vəsvəsəsi ilə halal olanla (həyat yoldaşı ilə) kifayətlənməyib, haram olana – zinaya sövq edir. Bu zaman şeytan qəlbində Allah qorxusu olmayan bəzi insanların azğınlığından da istifadə edir. Yəni şeytan insanı yoldan çıxartmaq üçün öz dostlarından lazımınca yararlanır. Nəticədə zina üçün kifayət qədər zəmin olduğunu görən və nəfsinin qulu olan insan ondan yayına bilmir.

Deməli, zinaya səbəb insandakı nəfs və bunun üçün yaradılan şəraitdir. Bunların hər ikisi isə, yəni nəfsin xarablığı və zina mühitinin insanlar tərəfindən şərait yaradılması, inamsızlıq və ya Allah qorxusunun lazımınca olmamasından irəli gəlir. Məsələn, ailədə dünyaya gələn uşaq sözsüz ki,

[7] Əhməd «Musnəd» 5/256; «Məcməuz-Zəvaid» 1/129; Silsilə, 370.

daim qayğı ilə əhatə olunur. İndiki dövrdə isə valideynlə övlad arasında olan ünsiyyətdə uşağa Allah qorxusu, Yaradana sevgi, Onun əmrlərinə itaət onun səviyyəsinə uyğun çatdırılması əvəzinə yeni nəslin davamçısına fani dünyanın sevgisi, əylənmək, kişilərin qarşısında rəqs etmək, qız uşaqlarına isə bəzilərinin geyindikləri abırsız geyimlərin kiçik variantı geyindirilir və s. buna bənzər hallar müşahidə olunur. Ən dəhşətlisi isə bu işlər o qədər sevilərək, şadlanaraq həyata keçirilir ki, sanki gələcəkdə böyüyəcək uşağı bu qeyd edilənlər xoşbəxt edəcəkdir. Əgər belə valideynlər Axirət həyatına şübhə etməsəydilər, himayəsində olanlara görə sorğu-suala çəkiləcəklərinə şübhə etməsəydilər, sözsüz ki, onlar doğulan körpələrinə Allahı razı salan əməlləri təlqin edərdilər. Peyğəmbər **səllallahu aleyhi və səlləm** demişdir: «Hamınız himayəçisiniz və hamınız himayəniz altında olanlara görə məsuliyyət daşıyırsınız!»[8] Bunu möminlərin sevimlisi Əli ibn Əbu Talib **radiyallahu anhu** təsdiqləmiş və Uca Allahın: **«Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlardan və daşlardan olan Oddan qoruyun!»**[9] ayəsinin təfsirində belə söyləmişdir: «Özünüzü və ailənizi yaxşı işlər görməyə təhrik edin və onları tərbiyələndirin».[10] Gəlin görək biz bu cür mənalı kəlamlardan nə cür dərs alır, onlara nə dərəcədə əməl edirik? Bir çoxları özləri ilə bərabər uşaqlarını da ucuz və səviyyəsiz teleserial seyriçilərinə çevirir, bəziləri də o qədər “qabaqgörən” olur ki, övladlarını səhərdən axşamadək dərs oxumaq, gələcək üçün gözəl mütəxəssis olmaq kimi ümdə vəzifənin dalınca düşməsi əvəzinə gözəllik müsabiqələri və başqa bu kimi dinimizə və əxlaqımıza zidd sahələrin mütəxəssisinə çevrilmələrinə rəvac verirlər. Yaxşı, deyək ki, indiki cavanlar qeyrət və namus, baş ucalığı üstündə hətta qan tökməkdən belə çəkinməyən dədə-babalarımızın dövrünü görməyiblər. Bəs sən necə, sənə deyirəm, ey özünü ağsaqqal, dünya görmüş sayan soydaşım, bəs sən necə, sən ki, o dövrü görmüsən. Məgər sən bilməyirsən ki, qızın, xanımın, dünya qədər malı olsa belə əgər qayğısında durduğu ailəsi olmazsa, o qadın özünü heç vaxt xoşbəxt saymayacaqdır. Sən bunu bilməyirsən məgər? Məgər bu gün bəzi müğənnilərin əxlaqsız geyimləri, səhnədə gördükləri “böyük” işlər nəticədə ailələrin dağılmasına səbəb olmurmu? Axı bunların hamısı xalqın gözü qabağındadır. Sən bunumu arzulayırsan öz körpə qız balana? Buna şərait yaradanların vay halına! Yəni siz düşünürsüz ki, bu millətin istedadlı həkimdən, müəllimdən, mühəndisdən, memardan, ziyalıdan çox bu cür müğənniyəmi ehtiyacı var? Əgər elədirsə onda nə üçün xəstələndiyiniz

---

[8] Muslim, 4701.
[9] «ət-Təhrim», 6.
[10] «əd-Durrul-Mənsur», 6/244.

zaman xarici dövlətlərə, əcnəbi həkimlərə üz tutursunuz? Elə isə nə üçün hər hansısa bir mürəkkəb şəhərsalma işləri üçün kənardan mütəxəssis gətirirsiniz? Son anda taleləri onu-bunu əyləndirməklə keçəcək qızların müsabiqələrini keçirmək əvəzinə pullarınızı təhsilin adı çəkilən sahələrinə yönəltsəniz pis olarmı?

Qayıdıram fikrimin əvvəlinə ki, belə veriliş və müsabiqələr, gənclərin həddən artıq əyləncəyə cəlb olunması bizə yaxşı heç nə vəd etmir. Bu gün bu cılız və bayağı təsirlər cəmiyyət üçün gözəl mütəxəssis əvəzinə şou əqidəli, teleserial təsirli insanlar formalaşdırır. İndi isə diqqətinizə insanların ən xeyirlisi olan Peyğəmbərimizin **səllallahu aleyhi və səlləm** qadın əxlaqı, kişi qeyrəti barəsində dediyi gözəl kəlamları çatdırıram. Peyğəmbər **səllallahu aleyhi və səlləm** demişdir:

«Ən yaxşı qadın o qadındır ki, əri ona nəzər saldıqda sevinsin, buyurduqda itaət etsin, ərinin xoşuna gəlməyən işləri görməklə, habelə onun malını lazımsız yerə sərf etməklə ona asi olmasın!»[11]

«Qadınlarınızın ən xeyirlisi ərini sevən, ondan dünyaya uşaq gətirən, ərinə gözəl tərzdə təsəlli verən, Allahdan qorxan qadındır. Onların ən yaramazı isə əxlaqsız geyinən və xülyalara dalandır!»[12]

«Sizi yollarda oturmaqdan çəkindirirəm». Əshabələr dedilər: «Ey Allahın elçisi, bizim başqa duracaq yerimiz yoxdur. Biz orada oturub sadəcə söhbət edirik». Peyğəmbər **səllallahu aleyhi və səlləm** dedi: «Madam ki, sizlər üçün oralarda oturmaq zəruridir, onda yolun haqqını ödəyin». Əshabələr dedilər: «Ey Allahın elçisi yolun haqqı nədir?» O dedi: «Gözləri aşağı dikmək (naməhrəmə baxmamaq), əziyyət verməmək, salamı almaq, yaxşılıqları əmr etmək və pisliklərdən çəkindirmək».[13]

«Allah Öz kölgəsindən başqa heç bir kölgənin olmayacağı bir gündə yeddi sinif insanı Öz kölgəsi altında kölgələndirəcəkdir: ədalətli rəhbər, Rəbbinə ibadət etməklə böyüyən cavan, qəlbi məscidlərə bağlı olan kişi, Allah xatirinə bir-birini sevən, buna görə birləşən və ayrılan iki kişi, gözəl və zadəgan qadın tərəfindən (zinaya) cəlb edildikdə, «mən Allahdan qorxuram!» deyən kişi, sağ əli ilə verdiyi sədəqəni sol əlindən gizlədən kişi və xəlvətdə Allahı yad edib göz yaşı axıdan kişi».[14]

Əziz oxucu, bax bizə belə əqidəli qızlar və oğlanlar gərəkdir. Bu gün bütün cəmiyyətin hər addımda zinaya dəvət olunması çox təhlükəlidir. Zinakarlıq o qədər yayılmışdır ki, hətta bəziləri öz qonşusuna belə etibar etmirlər. Halbuki, dədə-babalarımız qonşunu özünə dəstək hesab etmiş

[11] «Silsilətul-Əhadisis-Səhihə», 1838.
[12] «Silsilətul-Əhadisis-Səhihə», 1849.
[13] əl-Buxari, 5/2300.
[14] əl-Buxari, 1357; Muslim, 1031.

və onu ailə üzvlərindən ayırmamışlar. Qonşunun xəyanəti barəsində Peyğəmbər **səllallahu aleyhi və səlləm** belə buyurub: «Vallahi iman gətirmiş olmaz! Vallahi iman gətirmiş olmaz! Vallahi iman gətirmiş olmaz!» Ondan: «Kim, ya Rasulullah?" – deyə soruşdular. O dedi: «O kimsə ki, qonşusu onun şərindən (dili və əməli ilə ona əziyyət verməyəcəyindən) əmin deyil».[15]

«Qonşusu şərindən əmin olmayan kimsə Cənnətə daxil olmaz».[16]

«Zina barəsində nə deyə bilərsiniz?» Əshabələr dedilər: «Haramdır! Bunu Allah və Onun elçisi haram etmişdir və o, Qiyamət gününə qədər haramdır!» Peyğəmbər **səllallahu aleyhi və səlləm** dedi: «Kişinin on qadınla zina etməsi (günah baxımından) onun üçün qonşusunun qadını ilə zina etməsindən daha yüngüldür. Bəs oğurluq barəsində nə deyə bilərsiniz?» Əshabələr dedilər: «Haramdır! Bunu Allah və Onun elçisi haram etmişdir və o, Qiyamət gününə qədər haramdır!» O dedi: «Kişinin on evdən oğurluq etməsi (günah baxımından) onun üçün qonşusunun evindən oğurluq etməsindən daha yüngüldür».[17]

Bəzi cavanlarımız isə iqtisadi çətinliyi əsas gətirərək evlənmir və tələbatlarını zina etməklə ödəyirlər. Belə gənclər dini cəhətdən məlumatsız olduqları üçün çox insanların həyatını pis istiqamətə yönəldirlər. Belələrinə Peyğəmbər **səllallahu aleyhi və səlləm** bu şəkildə tövsiyə edərdi: «Ey cavanlar! Sizlərdən kimin evlənməyə gücü çatırsa, evlənsin! Həqiqətən də o, gözü daha yaxşı qoruyur, ayıb yerlərini daha gözəl mühafizə edir. Kimin gücü çatmırsa, qoy oruc tutsun. Doğrudan da, o, ehtirası söndürür!»[18]

Abdullah ibn Məsud **radiyallahu anhu** rəvayət edir ki, mən Peyğəmbərdən **səllallahu aleyhi və səlləm** soruşdum:

– Allah yanında günahların ən böyüyü hansıdır?

– Səni yaradan Allaha şərik qoşasan!

– Sonra hansı?

– Sənin yeməyinə şərik olacaq deyə övladını öldürəsən.

– Daha hansı?

– Qonşunun qadını ilə zina edəsən![19]

**«Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, müti kişilər və müti qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, səbirli kişilər və səbirli qadınlar,**

---

[15] əl-Buxari, 6016.

[16] Muslim, 1/68.

[17] Əhməd «Musnəd», 6/8.

[18] əl-Buxari, 4778; Muslim, 1400.

[19] əl-Buxari, 4761.

[Allaha] **boyun əyən kişilər və boyun əyən qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və** [ismətlərini] **qoruyan qadınlar, Allahı çox zikr edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır».**[20]

Doğrudan da zinaya qurşanmış insanlar bütün cəmiyyət üçün təhlükə törədirlər. Onların əməlləri ucbatından minlərlə ailələr dağılır, uşaqlar atasız, anasız qalır, körpələr evləri günahsız uşaqlarla dolur. Amma əməl sözsüz ki, cavabsız qalmır. «Bir gənc Peyğəmbərin **səllallahu aleyhi və səlləm** yanına gəlib oturdu və dedi: «Ey Allahın elçisi, hansı mömin fəzilətli sayılır?» O dedi: «Əxlaqı gözəl olan». Gənc yenə soruşdu: «Bəs hansı mömin daha düşüncəli sayılır?» O dedi: «(Əcəli gəlməzdən öncə) ölümü daha çox xatırlayan və buna yaxşı hazırlıq görən. Məhz onlar daha düşüncəlidirlər». Sonra gənc susdu. Peyğəmbər **səllallahu aleyhi və səlləm** dedi: «Ey mühacirlər tayfası! Beş şey vardır ki, onunla imtahan oluna bilərsiniz. Bunların sizin başınıza gəlməsindən Allaha sığınıram. O camaat ki, zinakarlıq onlar arasında açıq-aşkar yayılacaq, onlara taun və ata-babalarının başına gəlməyən xəstəliklər üz verəcək....»[21]

Bəli, çıxış yolu yenə dindədir. Yalnız İslam dini zinaya aparan yolları açıq-aşkar insanlara çatdıraraq ondan necə çəkinməyi öyrədir. Lakin çox təəssüf ki, bu gün bir çoxları bilərəkdən zinaya yol açır. Məsələn zinaya aparan ən geniş yayılmış əməl qadının açıq-saçıq geyinməsidir. Və ən təəssüf ediləsi hal da budur ki, gəncləri açıq-saçıq geyinməyə daha çox onların valideynləri sövq etməkdədir. Bu gün gənclərimizdən daha çox məhz yaşlılar ipə sapa yatmırlar. Allahın qadına hicab geyinməsi əmrini onlar: «deyəcəklər ki, filankəsin qızı molla olub», «bircə mollamız əskikdir», «camaat nə deyər», «sən özünə iş tapa bilməyəcəksən», «indi biz hansı dövrdə yaşayırıq», «əsas qəlbin təmiz və düz olsun», «bizim nəsildə başını bağlayan olmayıb» kimi ifadələrlə qarşılayaraq hicab geyinmək istəyən bacılarımıza, qızlarımıza mane olur, dava-dalaş salırlar. Belə valideynlərin vay halına! Qoy onlar qulaqlarını açıb eşitsinlər! Hicab Allahın əmridir. Yenə də vay onların halına! Qoy Uca Allah hicab geyindiyi üçün min əzaba və iztiraba dözən bacılarımızı bu dünyada da, Axirətdə də sevindirsin! Allah onlardan razı olsun! Allah onlara səbir versin! Qoy Uca Allah hicaba görə bacılarımıza əziyyət verən insanlara hidayət, inadkarlara isə layiqli cəza versin! Bir daha Uca Allahın hicab barəsində əmrini kor, kar və qəlbi bağlı insanlara

[20] «əl-Əhzab», 35.
[21] İbn Macə 4019; əl-Hakim, 4/583.

xatırlatmaqla yuxarıdakı fikirlərimizi təsdiq etmək istərdik. Bu barədə Uca Allah belə buyurur: **«Ya Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin qadınlarına de ki,** [naməhrəm yanında] **çarşablarını öz üstlərinə örtsünlər. Bu onların tanınması və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah Bağışlayandır, Rəhmlidir».**[22] Yaxşı əgər siz iddia etdiyiniz kimi qadınlara hicab geyinmək vacib deyilsə, onda bu ayəni nə cür başa düşək? Başqa bir ayəyə də nəzər yetirək:

**«Mömin kişilərə de ki, gözlərini aşağı diksinlər** [harama baxmasınlar] **və cinsiyyət üzvlərini qorusunlar. Bu, onlar üçün daha təmiz olar. Şübhəsiz ki, Allah sizin nə etdiklərinizdən Xəbərdardır. Mömin qadınlara de ki, gözlərini aşağı diksinlər** [harama baxmasınlar] **və cinsiyyət üzvlərini qorusunlar. Qoy onlar – görünənlər istisna olmaqla, zinətlərini** [naməhrəmə] **göstərməsinlər; örtüklərini yaxalarının üstünə salsınlar; zinətlərini ərlərindən yaxud atalarından yaxud ərlərinin atalarından yaxud öz oğullarından yaxud ərlərinin oğullarından yaxud qardaşlarından yaxud qardaşlarının oğullarından yaxud bacılarının oğullarından yaxud öz** [müsəlman] **qadınlarından yaxud sahib olduqları kölələrdən yaxud ehtirasını itirən kişi xidmətçilərdən yaxud qadınların çılpaqlığını hələ anlamayan uşaqlardan başqasına göstərməsinlər; gizlətdikləri zinət əşyaları bilinsin deyə ayaqlarını** [bir-birinə] **vurmasınlar. Ey iman gətirənlər! Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız».**[23]

Məgər bu ayədə Allahın qadına kimlərin yanında başı açıq gəzə bilməsinə icazə verməsi onların başqalarının yanında əksinə örtülü gəzmələrinə əmr deyilmi? Necə yəni «bizim nəsildə başı bağlı qız olmayıb». Ən azından bir nəsil öncəki nəslinə bax, əgər tanıyırsansa. Bax, örpəksiz bir qadın belə tapmazsan. Uca Allah Qurani Kərimdə yaşlı, şəhvəti sönmüş qadınlara qolları və topuqları açıq gəzməyə icazə versə də, yenə ayənin sonunda bağlı gəzməyi daha üstün tutur. Uca Allah qoca qadınların belə örtünməsini açıq gəzməkdən üstün tutursa, bəs cavan qadına münasibət necə olmalıdır? Bu barədə Uca Allah belə buyurur: **«Ərə getməkdən ümidini üzmüş yaşlı qadınların zinətlərini** [ayıb yerlərini] **göstərmədən üst geyimlərini** [hicablarını] **soyunmalarında günah yoxdur. İffətli olmaları** [hicablarını çıxarmamaları] **isə onlar üçün daha xeyirlidir. Allah Eşidəndir, Biləndir».**[24]

---

[22] «əl-Əhzab», 59.
[23] «ən-Nur», 30-31.
[24] «ən-Nur», 60.

Rəbbimiz yaratdığı insanın nə cür özünü aparmasını və aparacağını çox gözəl bildiyindən qabaqcadan müəyyən qadağalar qoymuşdur. Yəni bunu anlamaq belə çətindir?! Ola bilsin ki, sən Allahın bu və ya digər qadağasının hikmətini anlamayasan. Lakin bu halda əgər Allaha inanan insansansa, təslim ol. Arxayın ol ki, heç nə itirməyəcək, əksinə çox şey qazanacaqsan. Amma təəssüf ki, bu gün hər şeyin əksinə olduğunu görürük. Xüsusi məclislər təşkil edilir, Allahın əmrləri dövrə, zamana, daha nə bilim məkan miqyasına yerləşdirilir, içərilərindən "ağıllılar"da tapılır ki, hər ayəni öz ağlı ilə təfsir edir və son nəticədə də həmişə eyni qərara gəlinir; «inam qəlbində olsun», «ürəyin Allahla düz olsun». Bu savadsız və məntiqsiz münasibəti misal olaraq Respublikanın konstitusiyasına və cinayət məcəlləsinə şamil etsən təxminən belə olacaq: «əşi, konstitusiyanı qəlbimdə qəbul edirəm kifayətdir, əməl etməsəm də olar» və ya «oğurluğun cinayət olduğuna qəlbimdə inanıram kifayətdir, oğurluq etsəm də problem yoxdur». Məgər belə münasibət qəbul olunurmu? Və ya hər hansısa bir kişi həyat yoldaşına «səni qəlbimdə sevirəm də, bunu həyat fəaliyyətimlə sübut etməyə ehtiyac varmı?» deyərsə o xanımın münasibəti necə olar? Yəni bunları anlamaq belə çətindir? Bu gün bir çox yaşlı insanlar yaxşı xatırlayır ki, əgər təxminən iyirmi il bundan öncə hər hansısa bir qızı hansısa yad bir oğlanla görərdilərsə, o qıza heç kəs elçi göndərməzdi ki, bəs bu rüsvayçılıqdır. Yaxşı bəs indi nə dəyişib ki, hələ orta məktəbi bitirməyən, universitet auditoriyasından çıxmayan qızlarımızı televiziyada müsabiqələrə çıxardaraq ona-buna öpdürürsünüz. Son bir iki ildə meydana gələn növbəti əxlaqsızlıq insanların gözündə adiləşdirilməyə başlanılıb. Bu da sanki ürək dostu, sirdaşı kimi hansısa bir kişinin oğlu hansısa bir kişinin qızını minlərlə insanın gözü qarşısında qucaqlayıb öpür, ona nə isə arzulayır. Yaxşı bu əxlaqsızlığa pul, mənsəb xatirinə göz yuman kişi elə həmən bu qızın sabahkı gələcəyini düşünürmü? Bu nə adətdir? İndi təxminən bir on ildən sonra da kimə desən ki, bəs bu ayıbdır, oğlanla qız salamlaşmaq məqsədi ilə öpüşməz, heç şübhəsiz ki, indi yayılan bir cavabla üzləşəcəyik: «sən bunu haradan çıxartdın, biz dədə-babadan belə görmüşük». Çünki təxminən iyirmi il bundan öncə olmayan ədəbsiz əməl barəsində söyləyəndə bəzi "inkişaf etmiş" insanlar da eyni ilə bu cavabı verir. Baxın, beləcə ən böyük günahlardan biri hamımızın gözü qarşısında adiləşdirilir. Allahı qəzəbləndirib, insanları razı salanın vay halına! İndi baxın görün kişi qadın münasibətlərində gözlənilməli olan ən kiçik xırdalığa belə Allahın və Onun Peyğəmbərinin münasibəti necədir: **«Həqiqətən, möminlər nicat tapmışlar; o kəslər ki, namazlarında mütidirlər, o kəslər ki, lağlağılıqdan üz çevirirlər, o kəslər ki, zəkat verirlər, o kəslər ki, öz cinsiyyət üzvlərini** [hamıdan] **qoruyurlar,**

**ancaq zövcələri və sahib olduqları cariyələr istisnadır.** [Buna görə] **onlar qınanmazlar. Odur ki, bundan artığına can atanlar həddi aşanlardır».**[25]

**«Onlar Allahla yanaşı başqa tanrıya ibadət etməz, Allahın** [öldürülməsini] **haram buyurduğu şəxsi haqsız yerə öldürməz, zina etməzlər. Kim bunu etsə, cəzaya məruz qalar. Qiyamət günü onun əzabı qat-qat artırılar və** [o, əzab] **içində zəlil olaraq əbədi qalar. Ancaq tövbə edib iman gətirən və əməlisaleh olanlardan başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər. Allah Bağışlayandır, Rəhmlidir!»**[26]

**«Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur.** [Bu, Onun] **pislik edənlərə etdiklərinin cəzasını verməsi, yaxşılıq edənləri isə ən yaxşısı ilə** [Cənnətlə] **mükafatlandırması üçündür. Onlar** [o yaxşılıq edənlər] **kiçik günahlar istisna olmaqla, böyük günahlardan və iyrənc əməllərdən** [zinadan] **çəkinirlər...»**[27]

**«...Əməlisaleh qadınlar** [Allaha, sonra ərlərinə] **itaət edənlər, Allahın himayəsi sayəsində gizlində də** [əri yanında olmadıqda belə onun namusunu və malını] **qoruyub saxlayanlardır. Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, yataqda onları tərk edin və onları döyün! Əgər sizə itaət etsələr, onlara** [əziyyət vermək üçün başqa] **yol axtarmayın...»**[28]

«Qadınlara diqqət yetirin! Axı qadın qabırğadan yaradılmışdır. Qabırğadakı ən çox əyrilik onun yuxarı nahiyəsindədir. Onu düzəltmək istəsən, sındıracaqsan, düzəltməsən, əyilməkdə davam edəcək. Elə isə qadınlara diqqət yetirin!»[29]

«Kişi başqa bir kişinin ayıb yerlərinə baxmamalı, qadın da başqa qadının ayıb yerlərinə baxmamalıdır. Kişi kişi ilə, qadın da qadınla bir yorğan altında olmamalıdır».[30]

Cərir ibn Abdullah **radiyallahu anhu** deyir ki, mən [naməhrəmi] gözlənilmədən görmək barədə Peyğəmbərdən **səllallahu aleyhi və səlləm** soruşdum. O mənə baxmamağı əmr etdi.[31]

Bəhz ibn Həkimin babası **radiyallahu anhu** rəvayət edir ki, Mən Peyğəmbərə **səllallahu aleyhi və səlləm** dedim:

---

[25] «əl-Mu'minun», 1-7.
[26] «əl-Furqan», 68-70.
[27] «ən-Nəcm», 31-32.
[28] «ən-Nisa», 34.
[29] Muslim, 5633.
[30] Muslim, 338.
[31] Muslim, 2159,

– Ey Allahın elçisi! Biz ayıb yerlərimizi kimlərdən gizlətməliyik?
– Sən onu həyat yoldaşın və sahib olduğun cariyə istisna olmaqla hamıdan gizlətməlisən.
– İki kişi bir yerdə olsa necə?
– Çalış ki, ayıb yerlərini görməsinlər.
– Bəs xəlvətdə olsa necə?
– Allahdan utanmaq daha vacibdir![32]

«Allah Adəm oğlu üzərinə zinadan nəsibini yazmışdır. O, heç şübhəsiz buna yetişəcəkdir. Gözün zinası (naməhrəm qadına şəhvətlə) baxmaq, dilin zinası (halal olmayan sözlərlə zövq alaraq) danışmaqdır. Nəfs də arzu edir və istəyir (bu da nəfsin zinasıdır). Cinsiyyət üzvü isə bütün bunları ya təsdiqləyir, yaxud da təkzib edir».[33]

«Kim dodaqlarının arasındakını (dilini) və cinsiyyət üzvünü qorusa Cənnətə daxil olar».[34]

«Qiyamət günü Allah üç sinif insanla danışmayacaq və onları təmizə çıxarmayacaq, – Əbu Muaviyə deyir ki, onlara baxmayacaq və onlar üçün əzab vardır – zinakar qoca, yalan danışan rəhbər və təkəbbürlü kasıb».[35]

«Üç sinif insanlar vardır ki, [himayəçiləri] onlara görə sorğu-sual olunmayacaqlar; camaatdan ayrılıb rəhbərə asi olaraq ölən kimsə, ağasından qaçmış kölə yaxud kəniz, ərinin gözündən yayınan kimi açıq-saçıq geyinib əxlaqsızlıq edən qadın!»[36]

Peyğəmbər **səllallahu aleyhi və səlləm** Səudə bint Zəm'aya demişdir: «Allah sizə ehtiyacınız olduğu zaman evdən bayıra çıxmağa izn verib».[37]

Yaxşı indi bu ayə və hədislərə nə deyirsiniz? Nə deyirsinizsə deyin, amma bir şey gün kimi aydındır ki, siz bu ayələrə iman gətirib əməl etməyincə Allah sizdən razı qalmayacaq və belə haram yollarla, insanları zinakarlığa dəvət etməklə qazandığınız pullar gec-tez burnunuzdan gələcəkdir! Biz heç kəsə bəd dua etmək istəməzdik və bu heç düzgün də olmazdı. Çünki bizim hamımız soydaşıq. Biz çox istərdik ki, siz bu əməllərinizlə, milləti əylənə-əylənə, soyuna-soyuna zəiflədib son nəticədə bu xalqın kişilərinin gözündə qeyrət və namus hissini heçə endirməyəsiniz. Siz bu əməllərinizlə haram olan şeyləri o qədər adiləşdirirsiniz ki, sanki belə də olmalıdır. Sanki kiminsə qızı hansısa bir məhsulu reklam etmək üçün

[32] «Səhih ət-Tirmizi», 2222.
[33] əl-Buxari, 5/2304; Muslim, 4/2046.
[34] Əhməd «Musnəd», 4/398; «Məcməuz-Zəvaid», 1/298.
[35] Muslim, 1/27.
[36] «Səhihul-Ədəbil-Mufrad», 458.
[37] Muslim, 5633.

mütləq reklam roliklərində soyunmalı, sonra şəhvət yaradan hərəkət və səslərlə həmin məhsuldan dadmalı və yekun olaraq bu təəssürat "cənnət həzzi" adı altında insanlara çatdırılmalıdır. Cənnətin həqiqətən çox gözəl olması hamıya Quran ayələrindən aydındır və biz oranı qazanmaq üçün gecə-gündüz çalışırıq və çalışmalıyıq da. Lakin Allahın vəd etdiyi Cənnət belə pozğun səhnələrin "qəhrəmanlarına" etdikləri əməllərinə görə haram edilmişdir. Əgər onlar tövbə edib əməllərini islah etməsələr, Cəhənnəm əhlindən olacaqlar. Bu barədə Uca Allah belə buyurur: **«Hər kəs Allaha və Peyğəmbərinə itaət etməyib Onun sərhədlərini aşarsa, Allah da onu həmişəlik Cəhənnəmə daxil edər. Onu rüsvayedici bir əzab gözləyir».**[38]

Baxın və unutmayın! Məgər siz bu iyrənc əməllərinizlə Allah və Onun Elçisinəmi itaət edirsiniz? Allah bizə hər şeyi əmanət olaraq vermişdir və verilən bütün bu nemətlər barəsində soruşulacağıq. Yəni, siz ey valideynlər, Allahın sizə bəxş etdiyi övladlar barəsində soruşulacaqsınız. Əxlaqsızlıq edən hər kəs etdiyi əməllər barəsində soruşulacaqdır. Onların yaramaz işləri birbaşa bizim vətənimizə və vətəndaşlığımıza qarşı yönəlmişdir. Bu gün bəziləri etdikləri əməllərlə əxlaqsızlığı o qədər adiləşdirib yayıblar ki, bir çoxları artıq ailələrində baş verən qeyri əxlaqi halları bir norma hesab etməyə başlayıb. Məgər ailəsinin qeyrətini çəkməyən kişi vətəninin qeyrətini çəkərmi? Yaxşı bu cür çətin işləri kimlərlə edəcəyik? Bu gün ailəsinin qeyrətini belə çəkməyənlərləmi? Və ya əylənməkdən az qala qadınlardan seçilməyən oğlancığazlarlamı? Bu gün hamıya məlumdur ki, ölkə ərazisində Lut qövmünün davamçıları yaşamaqda və yayılmaqdadır. Məgər onların mövcudluğu bizim xeyrimizədirmi? Elə isə gəlin fəaliyyətimizi qəhrəmanlarımızın fəaliyyətini sayını və keyfiyyətini artırmağa və yaxşılaşdırmağa yönəldək. Lut qövmünün əməllərinə gəlincə, bu əməl sahiblərini dinimizə görə şiddətli əzab gözləyir. Bu barədə ayə və hədisləri diqqətinizə çatdırmaq istərdik:

**«Lutu da** [elçi göndərdik]**. O, öz qövmünə dedi: «Sizdən əvvəl aləmlərdən** [məxluqatdan] **heç kəsin etmədiyi iyrənc əməli sizmi edəcəksiniz? Siz, qadınları buraxıb şəhvani ehtirasla kişilərlə yaxınlıq edirsiniz. Həqiqətən də, siz, həddi aşmış bir tayfasınız». Onun qövmünün cavabı: «Onları yurdunuzdan çıxarın. Axı onlar təmizliyə can atan adamlardır», – deməkdən başqa bir şey olmamışdı. Biz onu və arvadı istisna olmaqla ailəsini xilas etdik. O** [arvadı] **isə geridə**

[38] «ən-Nisa», 14,

**qalanlardan** [həlak olanlardan] **oldu. Biz onların üzərinə** [daşlardan] **yağış yağdırdıq. Bir gör günahkarların aqibəti necə oldu».**[39]
**«Firon da, ondan əvvəlkilər də, alt-üst olmuş** [Lut qövmünə məxsus] **kəndlər də günah işləmişdilər. Onlar öz Rəbbinin elçisinə asi olmuş, O da onları** [şiddəti] **artan bir yaxalayışla** [əzabla] **yaxalamışdı».**[40]
**«Lut qövmü də elçiləri yalançı saydı. Bax, qardaşları Lut onlara dedi: «Məgər qorxmursunuz? Həqiqətən, mən sizin üçün etibar olunası bir elçiyəm. Allahdan qorxun və mənə itaət edin! Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir. Doğrudanmı siz aləmlərdən** [məxluqdan yalnız] **kişilərlə yaxınlıq edir və Rəbbinizin sizin üçün yaratdığı qadınlarınızı tərk edirsiniz? Doğrusu siz, həddi aşan bir camaatsınız». Onlar dedilər: «Ey Lut! Əgər** [təbliğatına] **son qoymasan, qovulanlardan olacaqsan!» O dedi: «Mən sizin əməlinizə nifrət edənlərdənəm! Ey Rəbbim! Məni və ailəmi onların tutduqları işdən qurtar!» Biz onu və onun bütün ailəsini xilas etdik. Geridə qalanlar** [həlak olanlar] **arasındakı yaşlı qadından** [arvadından] **başqa! Sonra da qalanlarını darmadağın etdik. Biz onların üzərinə** [daşlardan] **yağış yağdırdıq. Qorxudulanların yağışı necə də məhvedicidir! Həqiqətən, bunda bir ibrət vardır. Amma onların əksəriyyəti iman gətirmədi. Həqiqətən, sənin Rəbbin Qüdrətlidir, Rəhmlidir».**[41]
**«**Ümmətim üçün ən çox qorxduğum (yaramaz iş) Lut qövmünün əməlidir**».**[42]
**«**Allahdan başqasına qurban kəsənə Allah lənət eləsin. Yer üzündəki sərhədləri pozana Allah lənət eləsin. Kor adama düzgün istiqamət göstərməyənə Allah lənət eləsin. Valideynini (yaxud valideynlərini) söyənə Allah lənət eləsin. Başqasına zorla sahib çıxana Allah lənət eləsin. Lut qövmünün (yaramaz) işləri ilə məşğul olana Allah lənət eləsin. Lut qövmünün (yaramaz) işləri ilə məşğul olana Allah lənət eləsin. Lut qövmünün (yaramaz) işləri ilə məşğul olana Allah lənət eləsin!»[43]
Uca Allah Quranda onların fasiq (günahkar)[44], həddi aşan[45], fitnə-fəsad törədən[46], zalım[47] tayfa olduğunu bildirir.

---

[39] «əl-Əraf», 80-84.
[40] «əl-Haqqə», 9-10
[41] «əş-Şuəra», 160-175.

[42] ət-Tirmizi, 1457; əl-Albani bu hədisi həsən hesab etmişdir. «Səhih ət-Tirmizi», 1178.
[43] «Müsnəd», 1/309; əl-Arnaut demişdir: «Hədisin isnadı Buxari və Muslimin şərtinə uyğundur».
[44] «əl-Ənbiya», 74.
[45] «əl-Əraf»
[46] «əl-Ənkəbut», 30.
[47] «əl-Ənkəbut», 31.

Hesab edirik ki, bu dəlillər sizə kifayət edər ki, belə əməllərinizin haram olmasına inanasınız. Odur ki, gəlin belə iyrənc əməlləri cəmiyyət üçün adiləşdirməyək. Çünki insanlar həmişə nədənsə, çəkindikdə, utandıqda, həya etdikdə cəmiyyətdə əxlaq baxımından bir təmizlik, sabitlik yaranır. Əgər insan kiməsə görə hansısa bir əməldən çəkinirsə, utanıb həya edirsə bəs onların çəkindikləri insanların öz əqidələri dəyişsə nələrin baş verdiyini təsəvvürünüzə gətirirsinizmi? Elə bu səbəbdən də biz hamımız Allahın ipindən möhkəm yapışmalı və nümunə olaraq yalnız Peyğəmbərimizin **səllallahu aleyhi və səlləm** əxlaq və davranışından ibrət almalıyıq. Amma çox təəssüf ki, heç də hamı Allah üçün yaşamır ki, Onun da qarşısında həya etsin.
Əgər insanlara Allah qorxusu çatdırılsa, onlar daim nəzarət altında olduğunu bilər və günahlardan çəkinərlər. Böyük Allaha həmd olsun!
Əlavə olaraq onu deməyi özümüzə borc bilirik ki, əgər kimsə bu gün əxlaqsızlıqla məşğul olursa və ya insanları buna sövq edirsə qoy səhvini anlayıb tövbə etsin. Axı Allah Bağışlayandır. Sələf aliminin söylədiyi kimi "ibrət naqis başlanğıcda deyil, kamil sonluqdadır" söyləməklə ümidlərinizi Rəbbinizdən qırmamağı da sizə tövsiyə edirik.
Sonda əxlaqsızlıq və onun tərkib hissəsi olan zinakarlığa aparan yollar, zinanın fəsadları və ondan xilas olma yollarını aşağıdakı dəlillərlə ümumiləşdirmək istərdim.

## ZINAYA APARAN YOLLAR

– Naməhrəmə baxmaq. Peyğəmbər **səllallahu aleyhi və səlləm** demişdir: «(Təsadüfü) bir nəzərdən artıq nəzər salma. Çünki birincisi sənin lehinə, ikincisi isə əleyhinədir».[48]
– Naməhrəmlə əl ilə görüşmək. Aişə **radiyallahu anhu** demişdir: «Allaha and olsun ki, Peyğəmbərin **səllallahu aleyhi və səlləm** əli (naməhrəm) qadın əlinə toxunmamışdır».[49] Peyğəmbər **səllallahu aleyhi və səlləm** demişdir: «Sizlərdən birinin başına dəmir iynənin soxulması, onun üçün naməhrəm qadına toxunmaqdan xeyirlidir».[50]
– Naməhrəmlə xəlvətə çəkilmək. Peyğəmbər **səllallahu aleyhi və səlləm** demişdir: «Xəlvətə çəkilmiş elə bir kişi ilə qadın yoxdur ki, şeytan orada üçüncü olmasın».[51]

[48] Əhməd, 1/159.
[49] əl-Buxari, 2/967.
[50] ət-Təbarani 20/212, «Səhihul-Cami», 4921.
[51] Əhməd, 1/26.

– Naməhrəm qadının səsindən həzz almaq. Uca Allah buyurur: **«Ey Peyğəmbərin qadınları! Axı siz** [başqa] **qadınların heç biri kimi deyilsiniz. Əgər** [Allahdan] **qorxursunuzsa,** [yad kişilərlə] **yumşaq** [nazlana-nazlana] **danışmayın, yoxsa qəlbində mərəz olan tamaha düşər.** [Şəriətə] **müvafiq qaydada söz söyləyin»[52].** Peyğəmbər **səllallahu aleyhi və səlləm** demişdir: «Ümmətimdən elə bir tayfa olacaq ki, zinanı, ipəyi, sərxoşedicini (şərab və s.) və musiqini halal hesab edəcəklər»[53].

– Kişilərlə qadınların bir məclisdə olması. Peyğəmbər **səllallahu aleyhi və səlləm** demişdir: «(Naməhrəm) qadınlar olan yerə daxil olmaqdan həzər edin!» Ənsardan olan bir kişi dedi: «Bəs qohum necə?» Peyğəmbər **səllallahu aleyhi və səlləm** dedi: «Elə bəla da qohumdadır»[54].

– Yad bir yerə izinsiz daxil olmaq. Peyğəmbər **səllallahu aleyhi və səlləm** demişdir: «(Gözlənilmədən naməhrəmi) görməmək üçün izin istəmək vacib buyurulmuşdur».[55] «(Yad bir yerə daxil olmaq istədikdə) üç dəfə izin istəmək lazımdır. Sənə izin verilsə (gir), əks halda isə qayıt»[56].

– Qadının açıq-saçıq geyinməsi. Peyğəmbər **səllallahu aleyhi və səlləm** demişdir: «Mənim vəfatımdan sonra kişilərə ən çox zərər gətirə biləcək (fitnə) qadınların fitnəsidir»[57].

– Özbaşnalıq edib evdən çıxmaq. **«Evlərinizdə qərar tutun. İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin...»[58].**

– Ətirlənib kişilər arasına çıxmaq. Peyğəmbər **səllallahu aleyhi və səlləm** demişdir: «Hansı qadın ki, ətirləndikdən sonra onun ətrini duysunlar deyə camaat arasına çıxar, zina etmiş sayılar».[59] «Hansı qadın ki, ətirləndikdən sonra onun ətrini duysunlar deyə məscidə gedərsə, cənabət halında olduğu kimi qüsl etməyincə namazı qəbul olunmaz».[60]

– Təkbaşına səfərə çıxmaq. Peyğəmbər **səllallahu aleyhi və səlləm** demişdir: «Qadın səfərə yalnız məhrəmlə çıxa bilər».[61]

– Uşaqların tərbiyəsi ilə məşğul olmayıb onların əxlaqsız uşaqlarla təmasda olmasına biganə yanaşmaq.

– Əxlaqsız şəkillərin yayılması.

– Əxlaqsız teleseriallara və başqa bu kimi pozğun verilişlərə baxmaq.

---

[52] «əl-Əhzab», 32.
[53] əl-Buxari, 5268.
[54] əl-Buxari, 4934; Muslim, 2172.
[55] əl-Buxari, 5580; Muslim, 2156.
[56] Muslim, 2153.
[57] əl-Buxari, 4808; Muslim, 2470.
[58] «əl-Əhzab», 33.
[59] Əhməd 1/412, «Səhihul-Cami», 4126.
[60] Əhməd 2/444, «Səhihul-Cami», 2703.
[61] əl-Buxari, 1763; Muslim, 1341.

– Əxlaqsızlığa yol açan və zinanı təbliğ edən bayramlar.

## ZINANIN FƏSADLARI

– Namusu ləkələyir.
– Zinakar şəxs insanlar arasında gözü kölgəli (rüsvay) olur.
– Zina qəlbi qaraldır və onu sıxıntıya salır.
– Ailədə fəsad törədir, ərlə arvad arasında olan münasibətləri korlayır.
– Uşaqların tərbiyəsinə pis təsir edir.
– Əksər hallarda dünyaya gələn uşağın atasının kim olduğu bilinmir.
– Əsil-nəcabətin bilinməməsi və soy kökünün itib batmasına səbəb olur.
– Bəzən zinakarlar qeyrətin qurbanına çevrilirlər.
– Zinakarların əksəriyyəti narahatlıq hissi ilə yaşayır, yaxınlarının onların bu çirkin əməllərindən xəbər tutacağından qorxurlar.
– Zinanın yayılması cəmiyyətin xarab olmasına gətirib çıxardır.
– QİÇS və s. kimi təhlükəli yoluxucu xəstəliklərin yaranmasına və onların yayılmasına səbəb olur.
– Zinanın çoxalması Qiyamətin yaxınlaşmasıdır.
– Zina malın israf olmasına səbəb olur.
– Bir nəfərin zina etməsi onun bütün xalqının adına xələl gətirir.
– Zina edən şəxs tez-tez yalan danışmaq məcburiyyətində olur.

### Zinadan xilas olmağin yolları

– Namaz qılmaq; **«...Namaz qıl! Doğrudan da, namaz çirkin və yaramaz işlərdən çəkindirir».**[62]
– Oruc tutmaq; Əvvəldə qeyd olunan hədisə bax: «...Doğrudan da, o, ehtirası söndürür!»
– Zinadan qorunmaq üçün yalnız Allaha sığınmaq;
– Bu murdar əmələ gətirib çıxara bilən hər bir səbəbdən qaçmaq;
– Sözdə və əməldə ixlaslı olmaq. Axı Allah Yusufu **aleyhissəlam** məhz ixlaslı olduğuna görə zinadan qorumuşdur. (Yusuf surəsinin 22-ci ayəsindən 34-cü ayəsinə qədər oxu!)
– Çoxlu zikr etmək; Peyğəmbər **səllallahu aleyhi və səlləm** demişdir: «Bəndənin qəlbi düzəlməyincə imanı düzəlməz, dili düzəlməyincə də qəlbi düzəlməz!»[63]

[62] «əl-Ənkəbut», 45.
[63] «Məcməuz-Zəvaid», 1/53.

– Zinakarların başına gələnlər barədə düşünmək; hətta heyvanlardan belə ibrət götürmək olar: Amr əl-Audi rəvayət etmişdir: «Mən hələ cahiliyyə dövründə iki meymunun zina etdiyini, sonra isə digər meymunların onları əhatəyə alıb ölənə qədər daş-qalaq etdiklərini gördüm».[64]
– Ölümü xatırlamaq;
– Yaxşı adamlarla dostluq etmək; Peyğəmbər **səllallahu aleyhi və səlləm** demişdir: «Yaxşı dostla pis dostun məsəli, ətir satanla, körük vuranın məsəlinə bənzəyir. Ətir satanın yanında olsan, ondan ətir almasan belə ətrin iyindən ləzzət alacaqsan. Amma körük vuranın yanında olsan, paltarını yandırmasa da tüstüsündən əziyyət çəkəcəksən».[65]
– Aşağıdakı ayələri xatırlamaq;
**«Məgər o bilmir ki, Allah** [hər şeyi] **görür?»[66]**
**«O, gözlərin xəyanətini** [xain baxışları] **və qəlblərin nə gizlətdiyini bilir»[67].**
**«O dedi: «Qorxmayın! Axı Mən də sizinləyəm, [hər şeyi] eşidirəm və görürəm!»[68]**
**«Oda atılan kəs yaxşıdır, yoxsa Qiyamət günü arxayın gələn kəs? İstədiyinizi edin! Həqiqətən, O, sizin nə etdiklərinizi Görəndir»[69].**
**«Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz** [heç vaxt] **Bizə qaytarılmayacaqsınız?»[70]**
**«O gündən qorxun ki, onda Allaha qaytarılacaqsınız! Sonra hər kəsə qazandığının əvəzi tam veriləcək və onlara zülm olunmayacaqdır»[71].**
**«O gün insan deyəcəkdir: «Haraya qaçmalı?»[72].**
**«O gün heç kəs Onun verdiyi əzab** [kimi] **əzab verə bilməz»[73].**
– «Kim dörd şeydən, – (xain) baxışlardan, (pis) fikirlərdən, (boş) söhbətlərdən, (harama aparan) addımlardan, – özünü qorusa, dinini qorumuş olar.
“Baxmaq insanın başına bəlalar gətirən bütün işlərin başlanğıcıdır. Çünki baxmaq xatırlamağa gətirib çıxarır, xatırlamaq fikirləşməyə vadar edir, fikirləşmək şəhvəti oyadır, şəhvət istək əmələ gətirir, sonra isə bu, artıq qəti qərara çevrilir və əlbət ki, zina baş verir...” Yaxşı-yaxşı fikirləşin! Məgər vaxtını səmərəli keçirən adamla veyl-veyl gəzib ömrünü başa

[64] əl-Buxari, 3636.
[65] «Səhihul Buxari», 2101.
[66] «əl-Ələq», 14.
[67] «Ğafir», 19.
[68] «Taha», 46.
[69] «Fussilət», 40.
[70] «əl-Mu'minun», 115.
[71] «əl-Bəqərə», 281.
[72] «əl-Qiyamə», 10.
[73] «əl-Fəcr», 25.

çatdıran eyni ola bilərmi. Yaxşı deyiblər ki, “Vaxt qılıncdır. Sən onu kəsməsən, o səni kəsəcək...”»[74].

## SON SÖZ

Son olaraq hamımız üçün Uca Allahdan bağışlanma diləyir və bizi düz yoldan azdırmamağı arzulayırıq. Qoy Uca Allah Öz ayələrindən irəli gələn həyat tərzini bizim qəlblərimizə və beyinlərimizə hakim etsin. Bizi bu ayələri inkar edənlərin fitnə-fəsadından qorusun! Uca Allahın ayələrini inkar edənlərə isə Rəbbimizin bu ayələrini xatırlamaqla söhbətimizi bitiririk:

**«Şübhəsiz ki, ayələrimizi inkar edənləri Odda yandıracağıq. Hər dəfə onların dəriləri yanıb bişdikcə, əzabı** [tam] **dadsınlar deyə, onları** [dərilərini] **başqa dərilərlə əvəz edəcəyik. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir».**[75]

[74] «əd-Dau vəd-Dəvau», 232-250.
[75] «ən-Nisa», 56.

IslamHouse.com